www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-01 (1827) 16 yanvar 2026-cı il



## Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrimiz genişlənir

ATU ilə Gaziantep İslam Bilim ve Teknoloji Universiteti arasında müqavilə imzalanıb

səh. 2

“İlin ən yaxşı elmi işi” müsabiqəsi keçirilib

səh. 2

Təcili tibb kafedrası OSKİ imtahanlarında yeniliyə imza atıb

səh. 2

Səyyar stomatoloji xidmət: 8 mindən çox insan müayinə edilib

səh. 3



### Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində gənclərin rolu

Onların bu prosesdə yalnız fiziki əməklə deyil, ideoloji və ictimai fəaliyyətlə də iştirak etməsi vacibdir

səh. 2

### Qış mövsümündə xəstəliklərdən qorunmağın yolları

*Mütəxəssis deyir ki, xəstə insanlar qızdırmanı dərman vasitəsilə aşağı salaraq ictimai yerlərə çıxmamalıdır*

səh. 4

### Ahıl yaşlı insanlarda müalicənin düzgün seçilməsi çox vacibdir

*Arzu Bəydəmirova: Arterial hipertenziyanın müalicəsində həyat tərzi və qidalanma da mühüm rol oynayır*

səh. 4



### Hər kəs öz işinin peşəkarıdırsa, nəticə mükəmməl olur

Azərbaycan Tibb Universitetinin Tədris Onkoloji Klinikasından reportaj

səh. 5

# Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrimiz genişlənir

## ATU ilə Gaziantep İslam Bilim ve Teknoloji Universiteti arasında müqavilə imzalanıb

**Azərbaycan Tibb Universiteti ilə Gaziantep İslam Bilim ve Teknoloji Universiteti (GİBTÜ) arasında əməkdaşlıq müqaviləsi imzalanıb.**



İmzalanma mərasimində rektor, professor Gəray Gəraybəyli çıxış edərək qonaqlara universitetin fəaliyyəti haqqında ətraflı məlumat verib. O, ATU-nun 95 illik zəngin tarixə və formalaşmış akademik ənənələrə malik aparıcı ali tibb təhsili müəssisəsi olduğunu bildirib və universitetin hazırda 30-dan çox Türkiyə universiteti ilə əməkdaşlıq etdiyini vurğulayıb. Rektor qeyd edib ki, imzalanan saziş iki ali təhsil müəssisəsi arasında elmi və tədris əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək. Bu sənəd qarşılıqlı təcrübə mübadiləsi, birgə layihələrin icrası və akademik əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Professor G.Gəraybəyli sazişin gələcəkdə hər iki universitet üçün yeni imkanlar açacağını və uzunmüddətli, səmərəli tərəfdaşlığın əsasını qoyacağını bildirib.

GİBTÜ rektoru, professor Şehmus Demir çıxışında rəhbərlik etdiyi ali təhsil müəssisəsinin Türkiyənin ən yeni və gələcəyə yönəlmiş dövlət universitetlərindən biri olduğunu qeyd edib. O bildirib ki, universitetin əsas hədəfi islam mədəni irsi ilə müasir texnologiyanın sintezidir. Rektorun sözlərinə görə, GİBTÜ 5 əsas fakültə və bir neçə əlavə təhsil vahidi ilə fəaliyyət göstərir, tədris proqramları isə müasir texnologiya, islam elmləri və sosialyönümlü sahələri özündə birləşdirir. Universitetin kampusu Qaziantep şəhərinin müasir bölgəsində yerləşir.

Görüşdə, həmçinin ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və GİBTÜ-nün Mühəndislik sahəsi üzrə rektor köməkçisi professor Metin Bedir çıxış edərək, hər iki ali təhsil müəssisəsində son illərdə aparılan islahatlar, beynəlxalq əməkdaşlıq imkanları və gələcək birgə fəaliyyət perspektivləri barədə fikirlərini bölüşüblər.

# Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində gənclərin rolu

## Onların bu prosesdə yalnız fiziki əməklə deyil, ideoloji və ictimai fəaliyyətlə də iştirak etməsi vacibdir

**Universitetimizdə "Gələcək naminə: Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində gənclərin rolu" layihəsi çərçivəsində maarifləndirici tədbir keçirilib. Tədbir gənclərin yaradıcı potensialını üzə çıxarmaq, ictimai fəallığını artırmaq və innovativ təşəbbüslərini dəstəkləmək məqsədilə təşkil olunub.**

Tədbiri Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov açaraq universitetdə gənclərlə bağlı tədbirlərin artıq ənənə halını aldığını, universitetin dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlığa daim açıq olduğunu vurğulayıb. Prorektor tədbirin əvvəllər "Qaçqın və Məcburi Köçkünlər üzrə Gənclər Komitəsi" adı ilə fəaliyyət göstərən, hazırda isə "Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı" tərəfindən təşkil olunduğunu qeyd edərək, proqramın tibb tələbələri üçün də faydalı olacağına əminliyini söyləyib.

Daha sonra Gənclər Təşkilatının sədri Vüqar Qədirov çıxış edərək təşkilatın fəaliyyət istiqamətləri və məqsədləri barədə məlumat verib. O bildirib ki, təşkilatın əsas məqsədi gənclərin ictimai fəallığını artırmaq, vətənpərvərlik ruhunu gücləndirmək və sosial məsuliyyət hissini inkişaf etdirməkdir. V.Qədirov 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunan tarixi qələbəni və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərini ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası baxımından əhəmiyyətli hadisələr kimi vurğulayıb.

Həmçinin diqqətə çatdırıb ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır və keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Gənclərin bu prosesdə yalnız fiziki əməklə deyil, ideoloji və ictimai fəaliyyətlə də aktiv iştirak etməsi vacibdir. Sosial şəbəkələr və beynəlxalq platformalar vasitəsilə Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması gənclərin üzərinə düşən mühüm vəzifələrdəndir. Eyni zamanda, məcburi köçkün və qaçqın gənclər arasında maarifləndirmə işlərinin aparılması və onların vətənpərvərlik ruhunun yüksəldilməsi diqqət mərkəzindədir.

"Zirvə" Mədəniyyət Gənclər Təşkilatının sədri Şahin Qədirov çıxışında müharibə və postmüharibə dövründə tibb işçilərinin fədakarlıqlarını, həmçinin şəxsi xatirələrini iştirakçılarla bölüşərək, Qarabağ mövzusunun ədəbiyyatda və ictimai şüurda daim yaşadılmasının vacibliyini vurğulayıb. O bildirib ki, həkimlər insan həyatının xilasında əvəzsiz rol oynayıblar, bədii və elmi əsərlər isə gənclərin tarixi yaddaşının qorunmasına və vətənpərvərlik ruhunun formalaşmasına mühüm töhfə verir. Ş.Qədirov tibb tələbələrini gələcəkdə həm peşəkar həkim, həm də cəmiyyət qarşısında məsuliyyət daşıyan fəal vətəndaş olmağa çağırıb.



İncəsənətin Tərəqqisinə Dəstək İctimai Birliyinin sədri Turanə Orucova isə tədbirin Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirildiyini qeyd edib. O, Qarabağ və Şərqi Zəngəzur bölgələrində gənclərin iştirakı ilə həyata keçirilən sosial və maarifləndirici layihələr haqqında məlumat verərək tələbələri bu cür təşəbbüslərdə fəal iştirak etməyə və öz ideya və layihələrini irəli sürməyə çağırıb.

Tədbirin sonunda tələbələrlə açıq müzakirə aparılıb, onların Qarabağ və Şərqi Zəngəzurla bağlı fikirləri və təklifləri dinlənilib.

**Aytac ƏSƏDOVA**

# Təcili tibb kafedrası OSKİ imtahanlarında yeniliyə imza atıb



Təcili tibb kafedrası tədris prosesində innovativ yanaşma tətbiq edərək bir ilkə imza atıb. Belə ki, kafedrada keçirilən OSKİ imtahanları tamamilə yeni formatda təşkil olunub.

Yeni formatın əsas cəhətlərindən biri QR kodlar vasitəsilə kardioqramma nəticələri, ultrasəs müayinəsinin göstəriciləri və digər vizual tibbi məlumatların imtahan prosesinə daxil edilməsidir.

OSKİ imtahanı 5 stansiyadan ibarət olub və hər stansiya üzrə tələbələrə 3 dəqiqə vaxt verilib. Stansiyalardan birində isə simulyasion pasiyent modeli tətbiq edilib. Ümumilikdə imtahan prosesinə "Həyat" Teatr Klubunun 9 aktyor tələbəsi cəlb olunub. Onlar şikayətçi xəstə rolunu canlandırıb, imtahan verən tələbələr isə müayinə aparıb.

Qeyd olunub ki, təcili tibbi yardım şöbəsi digər şöbələrdən fərqli olaraq xüsusi yanaşma tələb edir. Bu şöbəyə müraciət edən xəstələr əksər hallarda panik vəziyyətdə, ağrılı və təcili müdaxiləyə ehtiyacı olan şəxslər olur. Yeni imtahan formatı tələbələrin bu cür real vəziyyətləri yaxından hiss etməsinə, stress altında düzgün diaqnoz qoyma bacarıqlarını yoxlamağa imkan yaradıb.İmtahandan keçən tələbələr tətbiq olunan yeniliyi müsbət dəyərləndiriblər.

İmtahan prosesini Tədris işləri üzrə prorektor, professor Anar Ağayev, Təcili tibb kafedrasının müdiri, dosent Nadir Zeynalov, Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov və II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli izləyiblər. Prorektor tələbələrlə fikir mübadiləsi aparıb. Kafedra müdiri isə imtahanın bu formatda keçirilməsi və ona hazırlıq prosesi barədə ətraflı məlumat verib.

**Bu günlərdə universitetimizdə tələbələrarası "İlin ən yaxşı elmi işi" müsabiqəsi təşkil olunub. Müsabiqəyə müxtəlif fakültələri təmsil edən tələbələr tərəfindən ümumilikdə 18 elmi iş təqdim olunub.**

# "İlin ən yaxşı elmi işi" müsabiqəsi keçirilib



Müsabiqənin nəticələrinə əsasən, I və II Müalicə-profilaktika, İctimai səhiyyə, Stomatologiya, Əczaçılıq və Hərbi tibb fakültələrindən Ali Ghorbaniazar, Nigar Babayeva, Aytac Məmmədova, Sepehr Shahim Germi Saber, Teymur Rəhimov və Nihad Həsənlinin elmi işləri qalib elan olunaraq mükafatlandırılıb. Digər iştirakçılar - Xədicə Aslanova, Rafiq Aslanov, Aytən Ələkbərova, Sədulla Məmmədli, Eldar Baxşəliyev, Leyla Səfərli, Matin Mahdi Ghods, Fidan İsazadə, Mehin Rəştiyeva, Cahan Hüseynli və Elmir Mirzəyevə isə sertifikat və hədiyyələr verilib.

Elmi işlər Həqiqət Qədirova, Elçin Ağayev, Zəfər Əliyev, Anar Abdullayev, Asif Arxməmmədov, Svetlana Babayeva və Rəna Şirvanovadan ibarət münsiflər heyəti tərəfindən işin aktuallığı və praktik əhəmiyyəti, tədqiqat prosesində əldə olunan bacarıqlar, təqdimat səviyyəsi və diskussiya meyarları üzrə 5 ballıq sistem əsasında qiymətləndirilib.

Qeyd edək ki, tədbirin keçirilməsində ATU-nun Həmkarlar İttifaqı ilə yanaşı, "Azərimed", "Zeytun Pharmaceuticals" və "Caspian Xəzri" şirkətləri sponsorluq ediblər.

# Elmi sahədə fəallığı ilə seçilən gənclərə təşəkkürnamələr verilib

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Rezidentura və magistratura şöbəsi tərəfindən elmi-tədqiqat fəaliyyəti ilə fəal məşğul olan rezident həkimlər üçün tədbir təşkil olunub.**



Tədbirdə çıxış edən şöbə müdiri, dosent İlhamə Mustafayeva rezidentləri əldə etdikləri uğurlar münasibətilə təbrik edərək, onların elmi potensialının və peşəkar inkişafının ölkə səhiyyəsi üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O, gənc həkimlərin beynəlxalq elmi mühitə inteqrasiyasını, müasir tibb elminin yeniliklərinə açıq olmalarını və elmi-tədqiqat fəaliyyətində fəallıq göstərmələrini yüksək qiymətləndirərək, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Tədbir çərçivəsində yüksək impakt faktorlu beynəlxalq jurnallarda elmi nəticələri dərc olunan, müxtəlif yerli və beynəlxalq elmi konfrans və tədbirlərdə iştirak edən, eləcə də Çin, Almaniya, Türkiyə və yerli bazalarda keçirilən rotasiyalar zamanı yüksək nəticələr göstərən 156 rezident həkimə təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, təltif olunan rezidentlər müxtəlif klinik və tədris bazalarında təhsil alır, əldə etdikləri bilik və təcrübə ilə Azərbaycan tibb elminin və səhiyyə sisteminin inkişafına mühüm töhfələr verirlər.

# ASSİP proqramı çərçivəsində startap mentorları sertifikatlaşdırılıb

**Universitetimiz akademik sahibkarlıq və innovasiya mədəniyyətinin inkişafı istiqamətində fəaliyyətini genişləndirir. Elmi Tədqiqatların İdarə Olunması Departamenti ötən il daha üç sertifikatlaşdırılmış startap mentorunun hazırlanmasını təmin edib.**



Yeni addım tibbi innovasiya ekosisteminin gücləndirilməsinə və ATU-nun müəllimləri, tədqiqatçıları və tələbələri üçün yeni imkanların yaranmasına töhfə verəcək.

Yeni mentorlar - İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşı Zemfira Nadirli, II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı Günay Səlamzadə və Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşı Püsən Məmmədova "Akademik sahibkarlıq əsaslı startap və inkubasiya proqramı" (ASSİP) adlı milli proqram çərçivəsində xüsusi təlim keçiblər. Proqram İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və Yeni Fikir platformasının dəstəyi ilə həyata keçirilir.

ATU-nun startap koordinatoru, dosent Ayət Cəfərova bildirib ki, yeni mentorların yetişdirilməsi yalnız təlim nəticəsi deyil, həm də universitetdə baş verən sistemli dəyişikliklərin göstəricisidir: "Bu proqram yeni bir mədəniyyətin başlanğıcıdır. Mentorlarımız müəllimlərə, doktorantlara və tələbələrə elmi ideyaları tibbi sahədə faydalı, innovativ həllərə çevirməkdə kömək edəcəklər".

ASSİP ölkədə akademik mühitdə innovativ düşüncənin inkişafına yönəlmiş əsas milli təşəbbüslərdən biri hesab olunur. Proqram tədqiqatçıların universitet elmini sahibkarlıq yanaşması ilə birləşdirərək bilik yaratmasına və həmin bilikləri cəmiyyət üçün dəyərə çevirməsinə kömək göstərir.

Yeni mentorların hazırlanması ATU-nun daxili innovasiya ekosistemini gücləndirəcək. Universitetdə elm tədricən texnologiya ilə iqtisadi dəyər yaradan modelə keçir, müəllim isə innovasiyanın aparıcı daşıyıcısına çevrilir. Bu proses qlobal təhsil tendensiyalarına – universitetlərin bilik ötürməkdən dəyər yaratmaq modelinə keçidinə uyğundur. Burada ideyalar praktiki güc qazanır, elm isə insani ölçü alır.

**ATU alimləri elmi-tədqiqat işlərini 2025-ci ildə də davam etdiriblər. Əldə olunan yeniliklər yerli və xarici ölkələrin nüfuzlu bazalarında (Web of Science, Scopus) indekslənən jurnallarda dərc olunub.**

# Alimlərimizin elmi məqalələri yüksək impakt faktorlu jurnallarda

Onların sırasında Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Elmi Araşdırmalar Mərkəzinin direktoru, dosent Orxan İsayev və Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayev də var. Cari il ərzində tədqiqatçıların həmmüəllifləri ilə 25-dən artıq elmi əsər, o cümlədən 14 məqalə Web of Science və Scopus bazalarına daxil olan yüksək impakt faktorlu jurnallarda nəşr edilib. Həmin jurnalların 4-ü Q1, 4-ü Q2, 5-i Q3, 1-i isə Q4 (quartile) səviyyəyə və 1.4-4.7 impakt faktora malikdir.



Alimlərimiz tərəfindən yerinə yetirilən elmi işlər müasir metodlar – Transmission Elektron Mikroskop (TEM) vasitəsilə icra edilib. Əsas istiqamətlər isə dəri leyşmaniozu zamanı xəstəlik törədicisinin parazit-sahib münasibətləri, epileptik statusu olan siçovul modellərində kain turşusunun (CA) təsirindən hipokampda baş verən dəyişikliklər, müxtəlif stress şəraitlərində bitkilərin hüceyrə orqanellərində baş verən dəyişikliklər, bitkilərdən əldə olunan bioloji aktiv maddələrin siçovul orqanizmində yaratdığı patologiyalar, bəzi patogen helmintlərin dəri-əzələ kisəsinin ultrastruktur tədqiqi, bir sıra nanohissəciklərin sintezi, xarakteristikası və canlı orqanizmlərdə bioakkumulyasiyası, miqrasiyası və toplandığı ərazilərdə yaranan dəyişikliklərin ultrastruktur tədqiqi olub. Fundamental tədqiqatların aparılmasında ATU-nun alimləri ilə yanaşı, həm yerli (BDU, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Sumqayıt Dövlət Universiteti, Fizika İnstitutu, Naxçıvan Dövlət Universiteti, ADNSU, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, Zoologiya İnstitutu, Radiasiya Problemləri İnstitutu, Xəzər Universiteti), həm də xarici ölkələrin universitet və qurumlarının (Harvard Universiteti (ABŞ), Emori Universiteti (ABŞ), Ege Universiteti (Türkiyə), Mardin Artuklu Universiteti (Türkiyə), İlia Dövlət Universiteti (Gürcüstan), İvane Beritashvili adına Eksperimental Biotibb Mərkəzi (Gürcüstan), Sivas Universiteti (Türkiyə), Pavia Universiteti (İtaliya), New Vision Universiteti (Gürcüstan), Berlin Texniki Universiteti (Almaniya)) alimləri də yaxından iştirak ediblər.

# Kafedra müdirinin yubileyi qeyd olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahi Klinikasında universitetin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimovun 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**






Kafedranın professoru Elçin Əhmədov çıxışında qeyd edib ki, professor Rəhimov kafedranın elmi-praktiki fəaliyyətini əhəmiyyətli dərəcədə genişləndirərək, kəllə-üz-çənə cərrahiyyəsi sahəsində dünyanın ən qabaqcıl texnologiyalarını ölkəmizdə ilk dəfə tətbiq edib. Yeni yanaşmalar sayəsində müalicənin effektivliyi artırılıb, əldə olunan elmi nəticələr isə nüfuzlu beynəlxalq jurnallarda dərc olunub.

Qeyd olunub ki, professor Ç.Rəhimov bu günədək 200-dən çox elmi işin (H-indeks – 10), o cümlədən 2 ixtiranın, 2 səmərələşdirici təklifin və 5 tədris-metodik vəsaitin müəllifidir. O, həmçinin 2022-ci ildə nəşr olunan, stomatoloqlar üçün nəzərdə tutulmuş iki cildlik İngiliscə–Azərbaycanca–Rusca izahlı tibbi lüğətin müəllifidir. Professor Ç.Rəhimov böyük elm məktəbi formalaşdıraraq 12 gənc alimin tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almasına rəhbərlik edib və hazırda da bu məktəb genişlənməkdədir.

Tədbirdə vurğulanıb ki, 44 günlük Vətən müharibəsi başladığı ilk gündən etibarən professor Ç.Rəhimov və rəhbərlik etdiyi kafedranın kollektivi yaralı hərbçilərin xidmətində dayanıb. Onun bilavasitə iştirakı ilə 100-dən çox yaralı üçün ən mürəkkəb rekonstruktiv əməliyyatlar aparılıb və onların böyük əksəriyyəti yenidən döyüş qabiliyyətli vəziyyətə gətirilib.

Professor Ç.Rəhimov elmi-praktiki fəaliyyətinin nəticələrini dünyanın müxtəlif ölkələrində keçirilən tibbi forumlarda təqdim edərək Azərbaycan tibb elmini layiqincə təmsil edir. Bu xidmətlərinə görə o, dəfələrlə nüfuzlu beynəlxalq konqreslərə dəvətli məruzəçi qismində çağırılıb. Hazırda professor Ç.Rəhimov Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin (AzOMFS) sədri, eyni zamanda Dünya Üz-Çənə Cərrahları Cəmiyyətinin I vitse-prezidenti, həmçinin Avropa Kəllə-Üz-Çənə Cərrahları Cəmiyyətinin Azərbaycan üzrə konsuludur.

Universitetin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan çıxışında bildirib ki, akademik Rəhim Rəhimovun nəsil-şəcərəsinin layiqli davamçılarından olan professor Çingiz Rəhimovun yubileyi təkcə bu auditoriyanın deyil, bütövlükdə ölkə səhiyyəsinin və dünya ağız və üz-çənə cərrahiyyəsi mütəxəssislərinin bayramıdır. O, yubilyarın şərəfli həyat yoluna, elmi-pedaqoji fəaliyyətinə və Vətən müharibəsi dövründə qazilərə göstərdiyi yüksək səviyyəli tibbi xidmətdən bəhs edib.

Daha sonra AMEA-nın müxbir üzvü, I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov çıxış edərək yubilyarın elmi fəaliyyətindən, Azərbaycan səhiyyəsinə və tibb elminə verdiyi dəyərli töhfələrdən söhbət açıb. O, professor Ç.Rəhimovun peşəkarlığını, elmi baxışlarının müasirliyini və cərrahiyyə sahəsində formalaşdırdığı məktəbin əhəmiyyətini xüsusi qeyd edib.

ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva isə çıxışında kafedra müdirinin Moskvada çalışdığı dövrü xatırladaraq, onun yüksək peşəkarlığı ilə yanaşı, güclü vətənpərvərlik mövqeyinə malik olduğunu vurğulayıb. Bildirib ki, yubilyar harada çalışmasından asılı olmayaraq, hər zaman Azərbaycanı və milli dəyərləri layiqincə təmsil edib.

Tədbirdə sonra Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev, Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov çıxış edərək yubilyarın yüksək peşəkarlığından, insani keyfiyyətlərindən və Azərbaycan səhiyyəsinə verdiyi töhfələrdən danışıblar.

Tədbirin sonunda professor Ç.Rəhimov çıxış edərək onu təbrik edən hər kəsə və tədbirin təşkilatçılarına təşəkkürünü bildirib. O qeyd edib ki, 36 yaşında tibb üzrə elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra Moskva Tibb Akademiyasında qalmaq təklifi alsa da, Vətənə dönməyi üstün tutub. Professor bu qərarına görə heç vaxt peşman olmadığını vurğulayaraq bildirib ki, insan üçün ən böyük mükafat öz xalqı tərəfindən anlaşılmaq, qiymətləndirilmək və qəbul olunmaqdır.

**Ötən il aprelin 12-də Tədris Stomatoloji Klinikanın səyyar xidməti yaradılıb və fəaliyyətə başladığı gündən indiyədək 17 səyyar xidmət həyata keçirilib. Məqsəd stomatoloji xidmətlərin daha geniş əhali qrupları üçün əlçatanlığını artırmaq, profilaktik müayinələri gücləndirmək və sosial həssas kateqoriyalara dəstək göstərməkdir.**

# Səyyar stomatoloji xidmət: 8 mindən çox insan müayinə edilib

Səyyar xidmət "Evrika" liseyi, 1, 2 və 3 saylı uşaq evləri, UNEC - Azərbaycan Maliyyə-İqtisad Kolleci, "Ataşgah Sığorta Şirkəti"nin partnyoru "Engin LTD", Azərbaycan Texniki Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Universiteti, Bakı Mühəndislik Universiteti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Ahıl Şəxslər üçün Sosial Xidmət Müəssisəsi, Bakı şəhəri Binəqədi rayonu Xocəsən bələdiyyəsi, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün 2 saylı Sosial Xidmət Müəssisəsi, Həssas əhali qrupları üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, Bakı Oksford Məktəbi, Bakı Ali Neft Məktəbində, eləcə də Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə təşkil olunub.

Adıçəkilən müəssisələrdə əhalinin ağız və diş sağlamlığı üzrə ilkin müayinələr aparılıb, həmçinin sağlam həyat tərzi təşviq edilib. Səyyar xidmətlər zamanı 8 000-dən çox insan ilkin müayinədən keçib, onlardan 300 nəfəri klinikaya dəvət edilərək müalicə olunub.

Səyyar xidmətlərin təşkilində klinikanın rezident komandaları və həkim heyəti fəallıqları ilə seçilib. Bu fəaliyyət həm əhali üçün keyfiyyətli stomatoloji xidmətlərin əlçatanlığına şərait yaradır, həm də klinikanın tanıdılmasına mühüm töhfə verir. Eyni zamanda, rezidentlərin praktik bacarıqlarının və elmi təcrübələrinin artırılmasına da müsbət təsir göstərir. Kafedranın həkimləri bu prosesdə aktiv iştirak edərək səyyar xidmətlərin əhəmiyyətini xüsusilə vurğulayırlar.

Səyyar xidmətlərin uğurla icra olunmasının əsas təşəbbüskarı isə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylidir. Rektorun tapşırığı və dəstəyi ilə fəaliyyətə başlayan bu layihə ATU Stomatoloji Klinikasının direktoru İmran Ağayev tərəfindən daim nəzarətdə saxlanılır və səyyar xidmətin əhatə dairəsi mütəmadi olaraq genişlənir.



# Qış mövsümündə xəstəliklərdən qorunmağın yolları

## Mütəxəssis deyir ki, xəstə insanlar qızdırmanı dərman vasitəsilə aşağı salaraq ictimai yerlərə çıxmamalıdır

**Son vaxtlar havaların soyuması ilə respirator virus infeksiyaları, xüsusilə də qripə yoluxma hallarında artım müşahidə olunur. Mövsümi xarakter daşıyan bu xəstəlik bəzi əhali qrupları üçün ciddi risklər yaradır. Mövzu ilə bağlı Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Cəlal İsayev "Təbib" qəzetinə açıqlama verib.**



C.İsayevin sözlərinə görə, hazırda qrip infeksiyasının sürətlə yayılması əsasən mövsümi amillərlə əlaqədardır: "Qrip adətən ilin soyuq aylarında daha geniş yayılır. Bunun əsas səbəbi virusların soyuq hava şəraitində daha uzun müddət aktiv qala bilməsi və insanların bu dövrdə qapalı məkanlarda daha sıx təmasda olmasıdır".

Kafedra müdiri bildirib ki, qrip infeksiyası xüsusilə 60 yaşdan yuxarı şəxslər və körpə uşaqlar üçün təhlükəlidir. Onun sözlərinə görə, cəmiyyətdə rast gələnən hər bir respirator xəstəlik çox vaxt ümumi şəkildə "qrip" adlandırılır: "Ola bilər ki, həmin dövrdə qrip virusu olmasın, əvəzində digər respirator virus infeksiyaları yayılsın. Lakin əhali arasında bunların hamısına ümumi olaraq qrip deyilir".

Həkim vurğulayıb ki, xəstəliyin gedişində əsas rol oynayan amillərdən biri immun sisteminin vəziyyətidir: "İmmuniteti zəif olan şəxslərdə bu xəstəlik daha ağır keçir. Bu səbəbdən ilk əlamətlər yaranan kimi, mütləq həkimə müraciət edilməlidir. Heç bir halda özbaşına müalicəyə yol verilməməlidir".

Mütəxəssis qeyd edib ki, qripdən qorunmaq üçün profilaktik tədbirlərə ciddi şəkildə əməl olunmalıdır. Xəstəliyin geniş yayıldığı dövrlərdə insanların sıx toplaşdığı məkanlardan uzaq durmaq, kütləvi tədbirlərdə iştirak edərkən maskadan istifadə etmək tövsiyə olunur: "Maska tənəffüs yolu ilə yayılan virusların qarşısını almaqda mühüm rol oynayır və həm sağlam insanı yoluxmadan qoruyur, həm də xəstə şəxsin başqalarını yoluxdurmasına imkan vermir".

C.İsayev xəstə olan şəxslərin məsuliyyətli davranmalı olduqlarını da diqqətə çatdırıb: "Xəstə insanlar temperaturu dərman vasitəsilə aşağı salaraq işə və ya ictimai yerlərə çıxmamalıdır. Qızdırmalı dövrdə mütləq yataq rejiminə əməl edilməli və ev şəraitində həkim təyinatına uyğun müalicə aparılmalıdır".

Kafedra müdiri qidalanmanın da mühüm rol oynadığını bildirib: "Burada söhbət çox yeməkdən deyil, keyfiyyətli və faydalı qidaların qəbulundan gedir. Qida rasionunda meyvə və tərəvəzlərə üstünlük verilməlidir. Çünki onlar orqanizm üçün vacib vitamin və mikroelementlərlə zəngindir".

C.İsayev vitamin preparatlarının müəyyən fasilələrlə qəbulunun faydalı ola biləcəyini bildirib və əlavə edib ki, qışda meyvə-tərəvəz az istifadə olunduqda, bu preparatlar orqanizmin müqavimətini artıra bilər, lakin əsas vitamin mənbəyi yenə də təbii qidalardır. Həkim, həmçinin qeyd edib ki, xalq arasında geniş yayılan limonlu, zoğallı və bitki çayları köməkçi vasitə kimi faydalıdır və ev şəraitində hazırlanan zoğal, qarağat və digər meyvə mürəbbələri xəstəlik zamanı orqanizmə yaxşı təsir göstərə bilər.

Pandemiya ilə bağlı narahatlıqlara da münasibət bildirən mütəxəssis vurğulayıb ki, qış mövsümündə müşahidə olunan bütün respirator infeksiyaları pandemiya kimi qiymətləndirmək düzgün deyil: "Əsas məqsəd panikaya düşmək yox, şəxsi gigiyena qaydalarına və profilaktik tədbirlərə əməl etməkdir".

Sonda mütəxəssis xüsusilə yaşlı insanların və 5 yaşadək uşaqların daha diqqətlə qorunmasının vacibliyini qeyd edib və hər kəsi öz sağlamlığına məsuliyyətlə yanaşmağa çağırıb.

# Ahıl yaşlı insanlarda müalicənin düzgün seçilməsi çox vacibdir

## Arzu Bəydəmirova: Arterial hipertenziyanın müalicəsində həyat tərzi və qidalanma da mühüm rol oynayır

***Ahıl yaşlarında insanların əziyyət çəkdiyi müxtəlif xəstəliklərin sayı artır. Bu xəstəliklər arasında kardioloji problemlər üstünlük təşkil edir. Yaşlı insanların hansı ürək-damar xəstəlikləri ilə daha çox üzləşdiyini öyrənmək üçün Ailə təbabəti kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Arzu Bəydəmirova ilə əlaqə saxladıq.***

A.Bəydəmirovanın sözlərinə görə, hazırda 65-75 yaş aralığında olan insanların sayı artır. Bu tendensiya təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində səhiyyə sisteminin yeni yanaşmalar və strategiyalar formalaşdırmasını zəruri edir: "Ahıl yaş dövründə xəstəliklərin, xüsusilə də kardioloji problemlərin artması sağlam qocalıq mühitinin yaradılmasına ciddi maneə təşkil edir. Yaşlı insanlar arasında ən geniş yayılmış xəstəlik arterial hipertenziyadır. Statistik proqnozlara əsasən, 2050-cu illərdə dünyada hər 6 nəfərdən biri ahıl yaş dövründə olacaq və bu yaş qrupunda hipertenziya ilk sırada dayanacaq".

Dosent bildirib ki, yaş artdıqca damarların anatomik və fizioloji quruluşunda dəyişikliklər baş verir. Gənclik dövründə hipertenziyası olan şəxslərdə bu dəyişikliklər ahıl yaşda daha ağır fəsadlara yol aça bilər. Onun sözlərinə görə, ilkin mərhələdə koqnitiv pozuntular yaranır, sonrakı mərhələdə isə Altsheymer xəstəliyinin inkişaf riski artır: "Bu səbəbdən hipertenziyanın müalicəsində elə preparatlar seçilməlidir ki, koqnitiv funksiyalara mənfi təsir göstərməsin. Hipertenziyanın digər təhlükəli tərəfi isə ürəyin sol mədəciyinə düşən yükün artması və yığılma qabiliyyətinin azalmasıdır. Arterial təzyiq yüksəldikcə, periferik damar müqaviməti də artır və bu isə getdikcə ürəyin yığılma qabiliyyətini zəifledir. Seçilən dərman həm təzyiqi tənzimləməli, həm də miokardın fəaliyyətinə mənfi təsir göstərməməlidir. Məsələn, bəzi beta-blokatorlar miokardın yığılma gücünü azaldır, kalsium kanal blokatorları isə yaşlılarda parkinsonizmə oxşar əlavə təsirlər yarada bilər".

A.Bəydəmirova qeyd edib ki, ahıl insanların bir çoxu arterial hipertenziya ilə bağlı müalicə alsa da, 65 yaşdan sonra mütəmadi təzyiq ölçmək vərdişi zəifləyir. Bu isə xəstəliyin yalnız miokard infarktı, işemik və ya hemorragik insult baş verdikdə, aşkara çıxmasına səbəb olur.



Həkim vətəndaşları "yaxınlarım belə məsləhət gördü", "qonşum bu dərmanı qəbul edir" kimi qeyri-peşəkar tövsiyələrlə özbaşına dərman istifadəsindən çəkinməyə çağırır. Deyir ki, böyrək xəstəlikləri, beyin-qan dövranı pozuntuları, mədə-bağırsaq sistemi problemləri və endokrin xəstəliklər hipertenziyanın yaranmasına səbəb ola bilər: "Məsələn, qalxanabənzər vəzin funksional çatışmazlığı zamanı istifadə edilən L-troksin molekulası ürəkdə simpatik aktivliyi artıraraq arterial təzyiqin yüksəlməsinə səbəb ola bilər. Bu halda hipertenziyanın əsas səbəbi düzgün seçilməyən endokrin müalicədir. Eyni zamanda şəkərli diabet zamanı istifadə olunan bəzi preparatlar da böyrək-qan dövranına mənfi təsir edərək arterial təzyiqi yüksəldə bilər".

Dosent vurğulayıb ki, ahıl yaşlı xəstələrdə təzyiqə qarşı dərman müalicəsi minimal dozadan, sutkada 1 dəfə qəbuldan başlanmalıdır. Çünki çoxsaylı dərmanların eyni vaxtda qəbulu yan təsir riskini artırmaqla yanaşı, preparatların bir-birinin sorulmasına mane olmasına da səbəb ola bilər.

A.Bəydəmirova müalicə prosesində həyat tərzi və qidalanmanın da mühüm rol oynadığını bildirib: "Duz və mayeni normadan artıq qəbul etmək yaşlı insanlarda səhər saatlarında arterial təzyiqin yüksəlməsinə səbəb olur. Buna görə də duzsuz pəhriz, düzgün rasion və karbohidratların günün ikinci yarısında qəbul edilməməsi tövsiyə olunur. Gecə saatlarında uzun müddət film izləmək və sosial şəbəkələrdən istifadə etmək də arterial təzyiqin yüksəlməsinə şərait yaradır".

Qeyd edək ki, Arzu Bəydəmirova vaxtaşırı Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının təşəbbüskarı olduğu xeyriyyə aksiyalarına da qatılır. O cümlədən, 44 günlük Vətən müharibəsindən sonra ölkənin müxtəlif bölgələrində şəhid və qazi ailə üzvlərinin tibbi müayinələrinin aparılmasında yaxından iştirak edib. Əməkdaşımız bu günlərdə keçiriləcək növbəti xeyriyyə tədbirində də yer alacaq.

**Qabil ABDULLAYEV**

# TAVİ əməliyyatı yüksək riskli xəstələrdə də icra olunur



**Tibb elminin son nailiyyətlərindən olan və yüksək xərc tələb edən TAVİ (transarterial aorta qapağı implantasiyası) əməliyyatlarının ötən ilin iyul ayından etibarən Azərbaycanda icbari tibbi sığorta hesabına icrası həyata keçirilir.**

Artıq 5 ildən çoxdur ölkəmizdə uğurla tətbiq olunan bu əməliyyat hazırda Xidmətlər Zərfi ilə qarşılanır və əsasən aorta qapağı xəstəlikləri, xüsusilə aortal qapaq darlıqları olan xəstələr üçün nəzərdə tutulub. 2024-cü il ərzində bu çərçivədə ümumilikdə 194 TAVİ əməliyyatı icra edilib.

I Daxili xəstəliklər kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının invaziv-kardioloqu Qalib İmanovun sözlərinə görə, TAVİ əməliyyatına ehtiyac, əsasən aorta qapağında yaşla əlaqədar yaranan degenerativ dəyişikliklər nəticəsində ortaya çıxır. Bu zaman qapaqda qalınlaşma və kalsinatların toplanması səbəbindən qapağın hərəkəti məhdudlaşır və ciddi daralma formalaşır. Diaqnoz exokardioqrafik müayinə əsasında qoyulur: "Əvvəllər bu cür hallar əsasən açıq ürək əməliyyatı ilə aradan qaldırılırdı. Lakin xəstələrin əksəriyyətinin yaşlı olması və yanaşı xəstəliklərin mövcudluğu açıq cərrahi müdaxiləni bir çox hallarda yüksək riskli edirdi. TAVİ əməliyyatı isə yüksək cərrahi riski olan xəstələr üçün daha təhlükəsiz alternativ hesab olunur. Prosedur qısa müddətdə icra edilir, ümumi narkoz tələb etmir, bədəndə kəsik və ya çapıq qalmır".

Həkim bildirib ki, TAVİ əməliyyatlarının icrası üçün xəstəxananın maddi-texniki bazası, müasir tibbi avadanlıqlar və peşəkar tibbi heyət mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycanda icbari tibbi sığorta çərçivəsində bu əməliyyatları həyata keçirən, mütəmadi olaraq bilik və bacarıqlarını artıran, xaricdə təlimlərdə iştirak edən ixtisaslı mütəxəssislər fəaliyyət göstərir. Texnologiyanın və tibbi alətlərin inkişafı əməliyyatların daha təhlükəsiz və effektiv icrasına imkan yaradır.

Qeyd edək ki, icbari tibbi sığortanın tətbiqi kardioloji xidmətlərin əlçatanlığını əhəmiyyətli dərəcədə artırıb. Bu sistem sayəsində vətəndaşlar yüksək xərc tələb edən kardioloji əməliyyat və prosedurlardan yararlanmaq imkanı əldə ediblər ki, bu da xüsusilə aşağı gəlirli əhali qrupları üçün müalicəyə çıxış imkanlarının genişlənməsi deməkdir.

# Hər kəs öz işinin peşəkarıdırsa, nəticə mükəmməl olur

**Azərbaycan Tibb Universitetinin Tədris Onkoloji Klinikasından reportajımızda bir sıra laboratoriya və müayinə kabinetləri haqda məlumat verəcəyik.**

**Patomorfoloji laboratoriyanın müdiri, tibb elmləri doktoru, professor Habil Muradov** rəhbərlik etdiyi laboratoriyada sitoloji, histoloji, immunhistokimyəvi müayinələrin aparıldığını qeyd etdi. Aparılan müayinələrin nəticələrinə əsasən, onkoloji



xəstəliklər barədə rəy verildiyini bildirdi: “Bizdə qan, sidik, sümük iliyi mayesinin sitoloji müayinəsi aparılır. İstənilən mayeni hüceyrə səviyyəsində dəyərləndirmək imkanlarına malikik. Müəyyən edə bilirik ki, hüceyrə xoşxassəlidir, ya yox.

Histoloji müayinədə istənilən nahiyədən götürülən toxumanı dəyərləndirmək mümkün olur. Cavab verə bilirik ki, bu hansı toxumanın materialıdır, toxuma xoşxassəlidir, yoxsa bədxassəli.

İmmunohistokimyəvi müayinə zamanı isə təkcə hansısa törəməyə rəy verməklə kifayətlənmir, eyni zamanda xəstəyə şüa müalicəsi və ya kimyəvi müləcənin təyin olunacağını müəyyən edirik”.

Professor H.Muradov gün ərzində 10-20 arası sitoloji, 15-20 histoloji, 4-5 immunhistokimyəvi müayinə aparıldığını bildirdi. Sitoloji müayinələrin cavabı 1 saat, histolojininki 1-2 həftə, immunohistokimyəvinin nəticəsi isə 3-4 gün ərzində hazır olur: “Müayinələrimizi Almaniya və İngiltərə istehsalı olan müasir avadanlıqlar vasitəsi ilə aparırıq. Cihazların bir hissəsi Tibb Universiteti, digər hissəsi isə Elmin İnkişafı Fondu tərəfindən verilib”.

Həmsöhbətimiz əlavə etdi ki, hətta cərrahiyyə əməliyyatı davam edərkən təcili müayinə etmək imkanları da mövcuddur ki, bunun da əhəmiyyəti olduqca böyükdür. Çünki düzgün cərrahi müdaxilə və düzgün müalicənin aparılmasına imkan verir.

Qeyd edək ki, Patomorfoloji laboratoriya-



da müayinələr iki həkim – H.Muradov və Fidan İbrahimova, laborantlar Nazilə İsmayılova, Larisa Vəliyeva, Qələmzər Əliyeva, eləcə də qeydiyyatçı Aygün Əliyevanın birgə səyləri ilə yüksək səviyyədə həyata keçirilir.

**Onkoginekoloq, dosent Şəlalə Bağırovanın** sözlərinə görə, klinikada yüksək innovasiya və rezolyusiyaya malik olan foto-video kolposkop üzərində müayinə və araşdırmalar aparılır: “Diqqətinizə çatdırım ki, foto-video kolposkop optik cihaz olaraq, erkən xərçəngönü diaqnostika üçün mühüm rola malikdir. Uşaqlıq boynunun bölgələrində erkən dəyişikliyi aşkar etmək mümkün olur.

Qeyd edim ki, kolposkopiya - histoloji müayinə ilə yanaşı gedən bir müayinə metodudur. Orada hüceyrə toxumalarını daha aydın görə bilirik. Müayinə zamanı mənşəyi, epiteli daha aydın şəkildə seçmək lazımdır ki, hədəfli olaraq biopsiya materialı alınsın. Biopsiya materialı yanılış toxumadan və sahədən alınsa, yanılış da diaqnoz qoyulur. Bu zaman müalicə də uyğun tətbiq edilmir. Biopsiya kolposkopun üstünlüyü ondan ibarətdir ki, gizli toxumalar spazmlanır və bir yerə toplanır. Optik cihaz vasitəsilə geniş və ətraflı təsvir əldə edirik. Bunun nəticəsində də müalicəni düzgün təyin etmək, xərçəngin qarşısını vaxtında almaq olur”.

Klinikada istifadə edilən “Leisegang” foto-video kolposkopu Almaniya istehsalıdır. Onun vasitəsilə uşaqlıq boynunun mikroskopik müayinəsi aparılır, uşaqlıq boynu, vagina və vulvada kiçik eroziyalar, kiçik şişlər və mikroqanaxmalar kimi ən kiçik toxuma qüsurları aşkar edilir. Kolposkopiya xüsusi hazırlıq tələb etmir, heç bir əks göstərişi yoxdur.

**I Daxili xəstəliklər kafedrasının dosenti, kardioloq-konsultant Samirə Muradova** bildirdi ki, klinikada elektrokardioqrafik (EKQ) və exokardioqrafik (EXO-KQ) müayinələr aparılır: “Biz EKQ vasitəsilə ürək ritminin pozulmasını, ürək əzələsinin zədələnməsini, ürək çatışmazlığını, ürək qapaqlarının problemlərini və digər xəstəlikləri aşkar edirik. Exokardioqrafiya isə ürəyin ultrasəs müayinəsidir. Hər hansı bir



üzvi, yaxud funksional patologiyanı aşkar etmək üçün EKQ müayinəsi kifayət etmir, mütləq EXO-KQ müayinəsindən keçmək



məsləhət görülür. Ürək qüsurlarında, xüsusən uşaqlarda EXO-KQ-nin böyük diaqnostik əhəmiyyəti var”.

Elektrokardioqrafik və exokardioqrafik müayinələr cərrahi müdaxilədən öncə də aparılır: “Əməliyyatdan öncə xəstənin şikayəti və narahatlığı varsa, bir müddət müalicə yazılır. O cümlədən xəstələr kimyəvi dərmanla müalicə olunursa, bu müalicələr ürək-damar sisteminə toksiki təsir edir ki, əlavə müalicəyə ehtiyac yaranır. Nəticəni dəqiqləşdirmək üçün yenidən müayinə aparırıq”.

**İmmunoloji kabinetin şüa-diaqnostika həkimi Sevda Babayeva** xəstələrin skrininqi və diaqnostikası ilə məşğul olduqlarını diqqətə çatdırdı: “Kontrol müayinələr, o cümlədən ağciyər və sümük müayinələri aparırıq. Rentgen, həmişə olduğu kimi, öz aktuallığını saxlayır. Düzdür, kompüter-tomoqrafik və digər diaqnostik üsullardan informativliyinə görə geri qalsa da, şüa yükünün az olması baxımından əhəmiyyətlidir”.

**Kabinetin həkim-radioloqu Leyla Salayeva** isə qeyd etdi ki, işlədiyi kabinetdə kompüter-tomoqrafiya müayinəsi aparılır: “Rentgen şüası ilə hər hansı bir nahiyə-



ninin kəsiklər formasında, cihaz vasitəsi ilə isə 3D konstruksiyalı görüntülərini əldə edirik. Bizdə həm ilkin, həm də onkoloji xəstələrin müalicədən sonrakı nəticələrini qiymətləndirmək üçün müayinələr aparılır. Onu da bildirim ki, kompüter tomoqrafiyası təkcə diaqnostika deyil, həm də bir invaziv metoddur”.

# Alimlərimiz Türkiyədə keçirilən konqresdə məruzə oxuyub




Türkiyənin Antalya şəhərində XXXI Beynəlxalq Allergiya və Klinik İmmunologiya Konqresi keçirilib. “Allerji və İmmünologiya: Bilimlə Güclənən Gələcək” mövzusuna həsr olunan konqresdə dünyanın müxtəlif ölkələrindən alimlər, tədqiqatçılar və sahə üzrə mütəxəssislər iştirak ediblər.

Universitetimiz konqresdə Allerqologiya və immunologiya kafedrasının əməkdaşları – Əməkdar elm xadimi, professor Lala Allahverdiyeva və dosent Nailə Quliyeva tərəfindən təmsil olunub. Professor L.Allahverdiyeva “Çocuklarda bronşiyal astımı öngörmede kalıtsal faktörlerin öneminin analizi (AR2 sinir ağı modeli)” və “Alerjik hastalıkların spesifik tanısında modern yaklaşımlar” mövzularında poster məruzələrlə çıxış edərək elmi təcrübələrini bölüşüb. N.Quliyevanın isə “Akut Alerjik Kontakt Dermatit (Klinik olgu)” adlı poster təqdimatı iştirakçıların marağına səbəb olub.

Tədbirin sonunda professor Lala Allahverdiyeva, Maria Torres və Cezmi Akdiş arasında qarşılıqlı əməkdaşlıq imkanlarına dair görüş keçirilib. Görüşdə Azərbaycan Allerqologiya və İmmunologiya Cəmiyyətinin gələcək inkişafı və perspektivləri baxımından birgə fəaliyyətin əhəmiyyəti vurğulanıb.

# Ortodontiya kafedrası beynəlxalq konqresdə fəal iştirak edib



Ortodontiya kafedrasının əməkdaşları beynəlxalq elmi-praktik konqresdə iştirak edib. Konqres Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuşdu.

Tədbirdə kafedranın müdiri, professor Ramidə Şadlinskaya moderator və məruzəçi qismində çıxış edib. Dosent Zaur Novruzov, assistent Güney Həsənova və doktorant Arzu Əhədova isə ortodontik anomaliyaların diaqnostikası və müalicəsinə həsr olunmuş elmi məruzələr təqdim ediblər. Məruzələrdə müasir müalicə üsulları, klinik nəticələr və yeni elmi yanaşmalar ətraflı şəkildə şərh olunub.

Konqresə fəxri qonaq qismində dəvət olunmuş tanınmış ortodont-alim, professor Nejər Erverdi də elmi məruzə ilə çıxış edib. Onun müasir ortodontiyanın aktual problemlərinə dair çıxışı iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Əməkdaşımız COST Assosiasiyasına xarici ekspert seçilib



Gürcüstanın Tbilisi şəhərində NeuroGeorgia-2025 Beynəlxalq Neyroelm Konfransı keçirilib. Konfransda Sitologiya, embriologiya və histologiya kafedrasının dosenti Günel Əyyubova məruzə ilə çıxış edib.

G.Əyyubova çıxışında müasir neyroelm sahəsində aparılan aktual tədqiqat nəticələrini təqdim edib. Konfrans çərçivəsində müxtəlif ölkələrdən gəlmiş tanınmış nevrologiya alimləri ilə elmi müzakirələr aparılıb və yeni beynəlxalq əməkdaşlıq imkanları yaradılıb.

Onu da qeyd edək ki, Günel Əyyubova Open Call OC-2025-1 müsabiqəsi üzrə COST Assosiasiyası (European Cooperation in Science and Technology) tərəfindən xarici ekspert kimi seçilib. COST Assosiasiyası Horizon Europe proqramı çərçivəsində maliyyələşdirilən Avropa elmi əməkdaşlıq platformasıdır və Avropa səviyyəsində tədqiqatçıların beynəlxalq şəbəkələşməsini, bilik və təcrübə mübadiləsini, eləcə də multidissiplinar elmi təşəbbüslərin inkişafını dəstəkləyir. Hazırda G.Əyyubova iki COST Action çərçivəsində işçi qrupunun üzvü kimi elmi fəaliyyətini davam etdirir.

# Həkim-rezident ABŞ-ın Johns Hopkins Hospitalında təcrübə keçib




Revmatologiya ixtisası üzrə III kurs həkim-rezidenti Rəşad Abızadə Amerika Birləşmiş Ştatlarının nüfuzlu tibb müəssisələrindən olan Johns Hopkins Hospitalının Lupus mərkəzində iki aylıq təcrübə keçib.

Təcrübə müddətində həkim-rezidentimiz dünya şöhrətli mütəxəssis, professor Michelle Petrinin rəhbərliyi altında Sistem Qırmızı Qurdeşənəyi (SLE) xəstəliyinin ən müasir müayinə, diaqnostika və müalicə üsulları ilə yaxından tanış olub, bu xəstələrin həyat keyfiyyətinin artırılmasına yönəlmiş ən son elmi yenilikləri öyrənib.

R.Abızadə, həmçinin hospitalın Revmatologiya şöbəsinin həftəlik elmi toplantılarında iştirak edib, dünyanın aparıcı mütəxəssisləri ilə peşəkar fikir mübadiləsi aparıb. Qeyd edək ki, bu şöbə son illər Amerika Birləşmiş Ştatlarında, eləcə də dünyada bu sahə üzrə aparıcı mərkəzlərdən biri hesab olunur. Onun yanında təcrübə keçdiyi M.Petri isə SLE üzrə dünyanın ən nüfuzlu mütəxəssislərindən biri olmaqla yanaşı, bu sahədə ən yeni müalicə və müayinə metodlarının hazırlanmasına mühüm töhfələr vermiş alimdir.

# Reabilitasiya və fizioterapiya zəruri xidmət sahəsinə çevrilib

Ötən ilin son günlərində “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Fizioterapiya və tibbi reabilitasiyanın inkişaf perspektivləri” mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbiri Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev açıb. O bu əlamətdar il çərçivəsində fizioterapiya və tibbi reabilitasiyanın aktual problemlərinə həsr olunmuş elmi-praktik konfransın keçirilməsini məqsədəuyğun hesab etdiklərini vurğulayıb. Bildirib ki, elmi və praktik əhəmiyyətə malik tədbirin əsas məqsədi sahə üzrə aktual problemlərin müzakirəsi, mütəxəssislərin bilik və bacarıqlarının artırılması, həmçinin müasir müalicə üsulları ilə tanışlıqdır.

Sonra çıxış üçün söz Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayevə verilib. Professor “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş belə bir konfransda iştirakdan məmnunluğunu ifadə edərək bildirib ki, bu kimi elmi platformalar tibbi biliklərin paylaşılması, müasir müalicə üsullarının müzakirəsi və sübutlara əsaslanan terapiyanın təşviqi baxımından mühüm əhəmiyyət daşıyır. O vurğulayıb ki, yüksək tibbi texnologiyaların tətbiqi və mütəxəssislər arasında təcrübə mübadiləsi tibb elminin inkişafına ciddi töhfə verir.



Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru Nailə Məmmədova çıxışında ölkədə fizioterapiya və tibbi reabilitasiya sahəsinin sürətlə inkişaf etdiyini bildirib. O, yeni reabilitasiya mərkəzlərinin yaradıldığını, müasir müalicə üsullarının tətbiq olunduğunu və bu sahənin səhiyyə sistemində mühüm yer tutduğunu qeyd edib.

TƏBİB-in icraçı direktorunun müşaviri, Yeni Klinikanın STROKE Mərkəzinin rəhbəri Pərvin Ələkbərov bildirib ki, reabilitasiya və fizioterapiya artıq müasir səhiyyədə zəruri xidmət sahəsinə çevrilib. Onun sözlərinə görə, məqsəd xəstələrin həyat keyfiyyətinin yaxşılaşdırılması və cəmiyyətə tam inteqrasiyasının təmin olunmasıdır.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin TAP layihə rəhbəri Turanə Əliyeva qeyd edib ki, dünyada fizioterapiya və reabilitasiya xidmətlərinə ehtiyac getdikcə artır. O, ÜST tərəfindən Azərbaycanda bu sahədə pilot layihələrin həyata keçirildiyini və ilkin səhiyyə xidmətlərinə əlçatanlığın gücləndirildiyini bildirib.

**Səhiyyə Nazirliyi, TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşkilati dəstəyi, Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) təşkilatçılığı ilə "Neyroinkişaf pozuntusu olan uşaqlarda koqnitiv disfunksiyaların reabilitasiyasında multidisiplinar yanaşma" mövzusunda elmi konfrans keçirilib.**



# Neyroinkişaf pozuntusu olan uşaqların reabilitasiyasında effektiv metodlar

Konfransın ilk sessiyasında APA-nın sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə “Neyroinkişaf pozuntularına erkən müdaxilə” mövzusunda məruzə edib. O, uşaqlarda inkişaf ləngimələrinin erkən yaşda müəyyən edilməsinin gələcək nəticələr üçün həlledici olduğunu vurğulayıb. Bildirib ki, vaxtında göstərilən dəstək uşağın cəmiyyətə uyğunlaşmasını xeyli asanlaşdırır, onun ünsiyyətini, müstəqil yaşama bacarıqlarını əhəmiyyətli dərəcədə gücləndirir.

Psixologiya üzrə fəlsəfə doktoru, dosent Limunət Əmrahlı “Autizmli şəxslərlə təlimin təşkilində müasir yanaşmalar” haqqında danışarkən bildirib ki, hər bir uşaq üçün xüsusi və fərdi öyrənmə proqramı hazırlanmalıdır. Bu müasir metodlar uşaqların ətrafdakılarla daha rahat ünsiyyət qurmasına birbaşa kömək edir.

Uşaq nevroloqu Ülkər Mürsəlova “Autizmli uşaqlarda komorbid halların tanınması” təqdimatında vurğulayıb ki, autizmlə bərabər rast gəlinən digər sağlamlıq problemləri mütləq nəzərə alınmalıdır. Həmin problemlərin aradan qaldırılması uşağın həm davranışına, həm də ümumi fiziki vəziyyətinə müsbət təsir göstərir.

Tibb üzrə fəlsəfə doktoru, dosent Aysel Qəlbinur “Uşaqların nevroloji inkişaf problemlərində oftalmoloji strategiyalar” mövzusunda çıxışında qeyd edib ki, görmə qabiliyyəti birbaşa beyin funksiyaları ilə əlaqəlidir. Müntəzəm göz müayinələri vasitəsilə uşaqdakı bəzi sinir sistemi problemlərini öncədən hiss etmək mümkündür.

II Uşaq xəstəlikləri kafedrasının dosenti Ülviyyə Hacıyeva “Autizm spektr pozuntuları olan uşaqlarda giardiasis. Diaqnostikası və müalicəsi” adlı çıxışında bəzi parazitlərin uşaqların sinir sisteminin işinə mane ola biləcəyini deyib. Bu infeksiyalar müalicə edildikdə, uşağın həm diqqəti artır, həm də özünü daha gümrah hiss edir.

Tədbirin növbəti sessiyalarında mütəxəssislər müalicə prosesinin digər mühüm tərəflərinə toxunublar. Dr. Səbinə Cəfərova “Autizm və peyvəndlər: Miflər, elmi faktlar və müasir tövsiyələr” mövzusunda təqdimatında peyvəndlərin autizm yaratması ilə bağlı fikirlərin heç bir elmi əsasının olmadığını bildirib, uşaqları ağır xəstəliklərdən qorumaq üçün peyvəndlərin vacibliyini vurğulayıb. Dr. Vüsalə Hüseynova “Neyroinkişaf pozuntusu olan uşaqlarda koqnitiv funksiyaların yaxşılaşdırılması: Multidisiplinar reablitasiya strategiyaları” barədə çıxış edərək bildirib ki, fərqli sahə həkimlərinin birgə fəaliyyəti reabilitasiyanın uğurunu təmin edir.

“Autizm spektr pozuntusu” mövzusunda çıxışında uşaq və yeniyetmə psixiatrı Ceyhun Cəfərov qeyd edib ki, bu diaqnoza sahib uşaqların ailə və cəmiyyət tərəfindən düzgün anlaşılması çox əhəmiyyətlidir. Onların gizli qalan bacarıqlarını üzə çıxarmaqla müstəqil həyata addım atmalarına kömək etmək mümkündür.

Uşaq nevroloqu Röyanə Quluzadə “Neyroinkişaf pozuntuları olan uşaqlarda sensor inteqrasiya terapiyası” haqqında məlumat verərək bildirib ki, xüsusi hərəkət və oyunlar vasitəsilə uşağın dünyanı qavraması yaxşılaşır.

Psixiatr Elmir Təhməzov “Uşaq və yeniyetmələrdə intihar davranışı” adlı təqdimatında intiharın bir çıxış yolu deyil, əslində uşağın yardıma ehtiyac duyduğunu və bu davranışın arxasında duran psixoloji amillərin dərindən araşdırılmalı olduğunu bildirib.

Qastroenteroloq, Nərmin Novruzova “Uşaq inkişafında vacib məqamlar, nevroloji yanaşma” təqdimatında vurğulayıb ki, sağlam qidalanma beyin hüceyrələrinin düzgün böyüməsi üçün təməl şərtdir. Həkim uşağın sinir sistemini daha da gücləndirən müalicə və reabilitasiya tədbirlərinin vacibliyini qeyd edib.

Konfransın yekununda ekspertlər sualları cavablandırıb, iştirakçılara sertifikatlar verilib.

# AQTA-nın əməkdaşları tələbələrimizlə müzakirələr aparıb

Tədrisin keyfiyyətinin yüksəldilməsi və tələbələrin praktik bacarıqlarının artırılması məqsədilə Qidalanma və tibbi ekologiya kafedrasında İctimai səhiyyə ixtisası üzrə təhsil alan tələbələrlə müzakirə təşkil olunub.

Qeyd edək ki, ATU ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) arasında 2018-ci ildən əməkdaşlıq müqaviləsi mövcuddur. Həmin müqavilə çərçivəsində İctimai səhiyyə fakültəsinin eyniadlı ixtisasında təhsil alan tələbələr hər il AQTA-nın laboratoriyalarında istehsalat təcrübəsi keçir.

Bu ildən etibarən universitetin rektoru, professor Gəray Gəraybəylinin rəsmi razılığı ilə AQTA-nın sədri, dosent Qoşqar Təhməzli Qidalanma və tibbi ekologiya kafedrasında “Qidalanma və qida siyasəti” və “Nutrisiologiya” fənlərindən mühazirələr oxuyur. Onun mühazirələri tələbələr tərəfindən böyük maraqla qarşılanır.

2025-ci ilin payız semestri ərzində Q.Təhməzli tərəfindən AQTA-da tələbələr üçün bir neçə maarifləndirici görüş keçirilib, onların bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində müzakirələr aparılıb.

Dekabrın 23-də isə Agentliyin əməkdaşları dərslərin keyfiyyəti və tələbələrin bu sahə üzrə fikirlərini öyrənmək məqsədilə İctimai səhiyyə ixtisası üzrə təhsil alan V kurs tələbələri ilə kafedrada görüş keçiriblər.



Görüşdə AQTA-nın Dövlət qulluğu və kadr məsələləri sektorunun müdiri Tural Əlizadə, Elmi Araşdırmalar Mərkəzinin maarifləndirmə sektorunun eksperti Zeynəbxanım Əliyeva və Qida təhlükəsizliyi şöbəsinin məsləhətçisi Nərmin Abasova iştirak ediblər. Müzakirələr zamanı əmək bazarının tələbləri, eləcə də bacarıqlı tələbələrin gələcəkdə Agentliyin müxtəlif struktur bölmələrində işlə təmin olunma imkanları barədə geniş fikir mübadiləsi aparılıb.

**Azərbaycan Tibb Universitetinin əməkdaşları təkcə ölkə daxilində deyil, xaricdə də öz uğurları ilə seçilirlər. Belə əməkdaşlardan biri də Bioloji kimya kafedrasının dosenti Mahirə Əmirova-Nəsrullayevadır. O, Amerika, İtaliya, Polşa, Britaniya, Türkiyə və s. xarici ölkələrdə təşkil olunmuş 40-dan çox konfransa qatılmaqla yanaşı, həm də bir neçə konfrans sessiyasına moderatorluq edib.**



# Əməkdaşımızın uğurları

Onun son illərdə Scopus Q1, Q2, Q3 və Q4 kvartilli jurnallarda 7 məqaləsi dərc edilib. Həmçinin Web of Science platformasının nəzdində yer alan CABİ jurnalında, habelə məşhur “Lippincott” çap evində dərc olunmuş məqalənin müəllifidir. Bundan əlavə, Scimago Q2 jurnalında da məqaləsi işıq üzü görüb, 2 məqaləsi isə məşhur “Springer Nature” preprintində yer alıb. M.Əmirovanın iki məqaləsi 2024-cü ildə post-Sovet ölkələri arasında keçirilmiş müsabiqədə birinci yerə layiq görülüb və “Ən yaxşı elmi məqalə” sertifikatı ilə təltif olunub.

Kafedranın dosenti 2024-cü ildə alınmış “Revmatizm əleyhinə vasitə” preparat ixtirasının həmmüəllifidir. “Surgery and Clinical Practice” və Amerikanın “İnternational Journal of Biochemistry and Physiology” jurnalının redaksiya heyətinin və “SelectScience” Beynəlxalq Elmi Cəmiyyətin üzvü olan M.Əmirova üç Q1 indeksli beynəlxalq Scopus jurnalında məqalələrin analizini aparan elmi rəyçi kimi fəaliyyət göstərməklə ATU-da çalışan müəllimlərin nə dərəcədə yüksək elmi bazaya sahib olduqlarının bariz nümunəsidir.

# “BP Azərbaycan” şirkətinin əməkdaşı mühazirə oxuyub

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasında tələbələrin seçdiyi ixtisasa marağı və motivasiyasının artırılması məqsədilə “Təcrübədən tədrisə” layihəsi çərçivəsində növbəti mühazirə keçirilib.

Mühazirənin qonağı “BP Azərbaycan” şirkətinin Sağlamlıq şöbəsinin əmək (sənaye) gigiyenası və sağlamlığı üzrə məsləhətçisi, ABŞ Miçiqan Universitetində İş sağlamlığı və təhlükəsizliyi mühəndisliyi fakültəsində təhsilini davam etdirən dr. Kamran Əmirli olub.

İngiltərənin NEBOSH, BOHS və Avropanın OHTA qurumlarından əmək gigiyenası üzrə beynəlxalq sertifikata malik olan, Occupational Hygiene Training Association (OHTA) Avropa qurumunun sertifikasiya olunub müəllimi kimi fəaliyyət göstərən qonaq, İctimai səhiyyə fakültəsinin tələbələrinə “Biomonitorinq və biomarkerlər” mövzusunda mühazirə oxuyub.

Mühazirədə, həmçinin “BP Azərbaycan” şirkətinin “SƏTƏM” və əmək gigiyenası sahəsində fəaliyyəti, iş yerlərində işçilərin sağlamlığının qorunması, iş mühitində sağlamlığa zərərli təsir göstərə biləcək fiziki, kimyəvi, erqonomik və digər amillər, onların qarşısının alınması haqqında ətraflı məlumat verilib. Tələbələr mühazirəni böyük maraqla dinləyib və onların sualları ətraflı cavablandırılıb.



# Rezidentlər üçün seminarlar təşkil olunub




**Rezidentura və magistratura şöbəsi və Tədris Terapevtik Klinikanın Revmatologiya şöbəsinin birgə təşkilatçılığı ilə rezidentlər üçün “Proqressivləşən sistem sklerozun müasir diaqnostikası və müalicə taktikası” mövzusunda elmi mühazirə keçirilib.**

Tədbir Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov və klinikanın baş həkimi Fəridə Hacıyevanın giriş sözləri ilə açılıb. N.Xəlilov proqressivləşən sistem sklerozun dəri, qan damarları, əzələlər və daxili orqanları zədələyən, bir çox orqan sistemlərində dəyişikliklərə səbəb olan mürəkkəb autoimmun xəstəlik olduğunu bildirərək, xəstəliyin dünya miqyasında, eləcə də ölkəmizdə vaxtında və düzgün diaqnostikasının müalicə nəticələrinə birbaşa təsir göstərdiyini diqqətə çatdırıb.

F.Hacıyeva isə proqressivləşən sistem sklerozun immun sistemin disfunksiyası və kollagen sintezinin artması ilə xarakterizə olunan mürəkkəb autoimmun xəstəlik olduğunu bildirib, bu səbəbdən effektiv müalicə üsullarının daim elmi diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayıb.

Klinikanın Revmatologiya və qastroenterologiya şöbəsinin müdiri, III Daxili xəstəliklər kafedrasının




professoru Sahib Musayev mövzu üzrə əsas məruzə ilə çıxış edərək, proqressivləşən sistem sklerozun erkən diaqnostikası, klinik xüsusiyyətləri, differensial diaqnostikası və müasir klinik protokollara əsaslanan müalicə taktikası barədə geniş məlumat verib, həmçinin xəstəliyin mümkün ağırlaşmaları və onların korreksiya üsullarına toxunub.

Professor çıxışında Reyno fenomeninin proqressivləşən sistem sklerozun erkən klinik əlamətlərindən biri olduğunu vurğulayıb və mövzunun tibbi baxımdan nə qədər mürəkkəb və aktual olduğunu məşhur revmatoloq Jordaninin sözləri ilə ifadə edib: “Təbabətdə bütün xəstəliklərin müalicəsi öə zaman mümkün olacaq ki, proqressivləşən sistem skleroz müalicə olunsun”.

* * *

Növbəti seminar “İnsulin pompası” mövzusunda təşkil olunub. Tədbirin moderatoru, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov dünya miqyasında, o cümlədən Azərbaycanda şəkərli diabetin geniş yayıldığını və müalicəsinin vacibliyini qeyd edib: “Diabet, bədənin qlükozanı enerji üçün istifadə etməsində problem yaşanan maddələr mübadiləsi xəstəliyidir, bu ya insulinin çatışmazlığı, ya da bədənin insulindən səmərəli istifadə edə bilməməsi səbəbindən baş verir. Diabet dünya üzrə geniş yayılmış ciddi sağlamlıq problemidir”.

Seminarda çıxış edən Daxili xəstəliklər kafedrasının rezidentlər üzrə məsul şəxsi, həkim-endokrinoloq, assistent Könül İsmayılova mövzunun aktuallığına toxunaraq bildirib ki, insulin pompası gələcəyin texnologiyalarından biridir: “Xəstələrin insulin pompasından düzgün istifadə qaydaları ilə bağlı maarifləndirilməsi hipoglikemiya və ketoasidoz riskinin, xüsusilə I tip şəkərli diabetli xəstələrdə azalmasına imkan yaradır. Bu isə insulindən asılı şəkərli diabet xəstələrinin həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına xidmət edir. Şəkərli diabet qanda qlükoza səviyyəsinin daimi nəzarətdə saxlanılmasını tələb edən xroniki xəstəlikdir və bu, həyat keyfiyyətinə və gözlənilən ömür uzunluğuna birbaşa təsir göstərir. Məhz buna görə insulin pompalarının tibbi praktikaya tətbiqi pasiyentlərin həyatını əhəmiyyətli dərəcədə asanlaşdırır və yaxşılaşdırır”.

Bundan sonra I kurs rezidenti Reyhan Əşrəfova mövzu üzrə məruzə ilə çıxış edərək insulin pompasının üstün və mənfi cəhətlərinə aydınlıq gətirib. Məruzəçi tərəfindən insulin pompalarının müxtəlif növləri təqdim olunub, bu müalicə üsulunun daha çox hansı pasiyentlər üçün uyğun olduğu, eləcə də insulin pompasından düzgün istifadə qaydaları izah edilib.

* * *

Tədris Cərrahiyyə Klinikasında “Müasir avtomatlaşdırılmış hemoqram cihazlarının nəticələrinin qiymətləndirilməsi və əlavə parametrlərin diaqnostikada rolu” mövzusunda elmi-praktik seminar keçirilib.

Seminar çərçivəsində məruzəni laboratoriyanın həkimi Nərmin Abdullayeva təqdim edərək müasir hematoloji analizatorların CBC göstəriciləri ilə yanaşı, əlavə diaqnostik parametrlərin - NRBC, IG, Ret-He, PDW, MPV, RDW və digər qabaqcıl indekslərin klinik praktikadakı rolundan danışıb. Məruzədə bu parametrlərin anemiyanın differensial diaqnostikasını sürətləndirdiyi, iltihabi proseslərin qiymətləndirilməsini asanlaşdırdığı, infeksiyaların erkən aşkarlanmasına və hematoloji xəstəliklərin monitorinqinə imkan yaratdığı vurğulanıb.

Seminar zamanı müasir analizatorlarda istifadə olunan qrafik təsvirlərin (histogram və skatter-plotlar) laborator mütəxəssisdən peşəkarlıq tələb etdiyi, nəticələrin düzgün şərhinin isə laborator və klinik həkim arasında koordinasiyanı artırdığı qeyd olunub. Müzakirələrdə avtomatlaşdırılmış hemoqram cihazlarının üstünlükləri, nəticələrin interpretasiyası zamanı qarşılaşılan çətinliklər və laborator-klinik korelyasiyanın əhəmiyyəti geniş şəkildə müzakirə olunub.



# Qaraciyərimizi “qaragünlü” etməyək və ya şirin olanın acı nəticələri



**Vahid QƏMBƏR,**
*III Daxili xəstəliklər kafedrasının dosenti*

**Orqanizmin həyat fəaliyyətində qaraciyərin rolu müxtəlif dövrlərdə müxtəlif cür qiymətləndirilib. Belə ki, qədim Babildə qaraciyərə “ruhun məkanı” olan mərkəzi orqan kimi baxıblar və belə xəstələrin müalicəsində kahinlər də iştirak edib.**

Hippokrat isə qaraciyəri qanın və ödün yaranmasına cavabdeh orqan kimi dəyərləndirib. 17-ci əsrdə qan dövranı sistemi kəşf olunandan sonra güman ediblər ki, qaraciyər yalnız öd əmələ gətirmə funksiyasına malikdir. 19-cu əsrdə isə qaraciyərin öyrənilməsinin yeni erası başlayıb. C.Bernard qaraciyərin maddələr mübadiləsində mühüm rol oynadığını deyib. İ.P.Pavlov isə ət zəhərlənməsini şərh edərkən qapı venası ilə bağırsaqlardan gələn toksik məhsulların neytrallaşdırılmasında qaraciyərin rolunu qiymətləndirib. Amma qaraciyərin regenerasiya (özünü bərpa) qabiliyyətinə malik olmasına Qədim Yunan əfsanəsində rast gəlinir. Belə ki odu oğurlayıb insanlara verdiyi üçün Prometey cəzalandırılır. Onu dağda qayaya bağlayırlar. Qartal hər gün gündüzlər onun qaraciyərini dimdikləyərək yeyir. Herakl qartalı oxla vurub Prometeyi xilas edənə kimi bu cəza yüz illər boyu davam edir. İndiki zamanda qaraciyərdən "pay" verərək başqasına həyat bəxş etmək qaraciyərin bu qabiliyyətinə əsaslanır. Amma bu günə qədər qaraciyərin orqanizmdə rolu tam öyrənilməyib.

Qaraciyərin xəstəlikləri içərisində ən çox rast gəlinəni qaraciyərin piylənmə xəstəliyidir. Bu xroniki xəstəlikdir. Hepatositlərin 5 %-dən coxunda lipidlər toplanır (qaraciyərin steatozu) Bu xəstəliyin yayılması 20-25 %-dir. Uzun illər qaraciyərin steatozu təhlükəli xəstəlik sayılmayıb. O, steatohepatit, fibroz, sirroz mərhələlərini keçərək qaraciyərin karsinomasına kimi irəliləyə bilir. Bu xəstəlikdə ürək qan-damar sistemi, böyrək, onkoloji xəstəliklərin, şəkərli diabetin əmələ gəlmə riski artır. Xəstəlik üçün gizli gediş xarakterikdir. Qaraciyərin steatozu özünü ilk dəfə final mərhələdə qan qusma, qançırlar kimi əlamətlərlə göstərir və ya qaraciyərin karsinoması mərhələsində aşkar oluna bilər. Qaraciyərin piylənmə xəstəliyinin səbəbləri çoxdur: hepatit B və C virusları, metabolik pozğunluqlar, genetik faktorlar. Alkoqolun qaraciyərin steatozuna səbəb olması məlum idi. 1980-ci ildə Meyo klinikasında alkoqoldan istifadə etməyən şəkərli diabet 2 tipli xəstələrin qaraciyərində alkoqoldan istifadə edənlərin qaraciyərinin eyni mənzərəsini aşkar edib, bu halı qeyri-alkoqol mənşəli qaraciyər steatozu adlandırdılar.

Hal-hazırda qaraciyərin qeyri-alkoqol mənşəli steatozu hepatit B və C mənşəli steatozu, alkoqol steatozunu geridə qoyaraq 1-ci yerə çıxıb. Qeyri-alkoqol mənşəli qaraciyər steatozunun əsas səbəbi insanın özüdür: vərdişləri və dəyərləri. Heyvani yağlardan, şirniyyatdan çox istifadə etmək, hərəkətsizlik. Xəstələrin 90 %-də bədən çəkisi artıq olur, 40-60 yaşda qadınlar üstünlük təşkil edir. Amma indi uşaqlarda da rast gəlinir. Bu da onların şirin sulardan çox istifadə etməsi, “fast-food” yeməsi ilə bağlıdır. Şirin sularda qarğıdalı şəkərindən istifadə olunması xüsusilə təhlükəlidir. Qarğıdalı doyma hissini azaldır.

Dərmanların da qaraciyərin steatozuna səbəb olması məlumdur və bu onların təlimatında göstərilir. Qida əlavələrinin qaraciyəri zədələmək ehtimalı dərman və digər amillərdən yüksəkdir. Halbuki, qida əlavələrini immuniteti gücləndirən, qaraciyəri qoruyan məhsul kimi reklam edirlər. Xəstələrin müayinəsində alkoqol qəbulu, keçirilmiş və yanaşı xəstəliklər, qida rejimi, fiziki fəallıq, qəbul edilən dərmanlar sorğulanıb-araşdırılmalıdır. Qaraciyərin transaminazaları, qələvi fosfotaza, qammaqlutamattranspeptidaza, bilirubin, koaquloqramma, hepatit B və C viruslarının markerləri araşdırılmalıdır. Analizlərin nəticələri xəstəliyin ağırlıq dərəcəsinə uyğun olmaya bilər. Müasir tranziet ultrasəs müayinəsi (fibroskan) diaqnoz qoymaq üçün qaraciyərin morfologiyası barədə yetərli məlumat versə də, bəzi hallarda qaraciyərin biopsiyası lazım gəlir.

Əfsus ki, qaraciyərin steatozunu aradan qaldıracaq, xəstənin ömrünü uzadacaq dərman vasitəsi hələlik yoxdur. Ən etibarlı və sübut olunmuş vasitə düzgün qida rejimi, fiziki fəallıq, çəkini salmaqdır. Yağ mübadiləsinin pozulmasında hperinsulinemiyanın, insulinə rezistentliyin əmələ gəlməsinin mühüm rolu var. Çəkini salmaq üçün qida rasionunda heyvani yağlara, şəkərə yox, doymamış bitki yağlarına, tərəvəzə üstünlük verilməlidir. Fiziki məşqlər insulinə həssaslığı artırır. Həftədə 3-4 aerob məşq kifayətdir. Çəkini çox sürətlə salmaq xəstəliyin gedişini pisləşdirir. Çəkini həftədə 500-1000 qr salmaq ən optimal sayılır. Bədən kütləsinin 8-10% azalması qaraciyərdə histoloji mənzərənin yaxşılaşması ilə müşayiət olunur.



Xəstələrə çiy soğan, sarımsaq, yağlı ət və balıq, konservləşdirilmiş və hisə verilmiş ərzaqlar, yağlı süd məhsulları, pomidor, turp yemək və qazlı su, soyudulmuş içkilər, kofe, kakao içmək qəti olmaz. Yarma şorbaları, buğda və ya suda bişmiş toyuq, hinduşka əti (dərisi olmaz), mal əti, suda bişmiş tərəvəz, təzə göyərti, təzə və quru meyvələrin kompotu, yağsız süd, kefir, yoqurt, tünd olmayan çay, meyvə və giləmeyvə şirələri, yağsız pendir, düyü, qarabaşaq, yulaf, darı yarmasından olan yeməklərdən gündə 4-5 dəfə az porsiyalarda qəbul edilməlidir. Gün ərzində suda bişmiş 1 yumurtaya da icazə verilir. Maye qəbulu acqarına və qida qəbulu arası olmalıdır.

Gəlin unutmayaq ki, dərdə dərman bildiyimiz vasitələr, eləcə də həvəslə yediyimiz şirniyyatlar və şirin qazlı içkilər qaraciyərimizi "qaragünlü" edə, acı nəticələrə gətirib çıxara bilər.

## Dünyadan bizimkilər

# Azərbaycan Tibb Universitetinin əcnəbi tələbələri: liderlik, təhsil imkanları və şəxsi hekayələr

Azərbaycan Tibb Universitetində təhsil alan xarici tələbələr həm akademik, həm də sosial mühitdə əldə etdikləri təcrübələrlə seçilirlər. Onlar yalnız öz təhsillərinə fokuslanmır, eyni zamanda tələbə həyatında aktiv rol oynayaraq həmyaşıdlarına dəstək olur, universitetlə tələbələr arasında körpü qururlar.
Belə tələbələrdən biri də II Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbəsi



**Məhəmməd Mehdi Arslantürkdür**.
Məhəmməd Mehdi Türkiyə vətəndaşıdır. O, həm qrup nümayəndəsi, həm də 2023-cü ildən etibarən türk tələbələrin dərnəyinin sədri kimi fəaliyyət göstərir.
Deyir ki, hələ məktəb illərindən özündə liderlik bacarıqlarını formalaşdırıb: “Liderlik təcrübəmə orta məktəbdə oxuyanda - 9-cu sinifdən başlamışam. İctimai fəaliyyətlə məşğul olmuş, qrup nümayəndəliyi üçün lazım olan ilkin təcrübəni də oradan əldə etmişəm. Universitetdə də dekanlıqla tələbələr arasında əlaqələrin düzgün qurulması üçün daim işləyirəm”.
Onun sözlərinə görə, tələbələrə dəstək olmaq, onların sənədləşmə, imtahanlar, yaşayış, tibbi yardım və universitetdaxili prosedurlarla bağlı çətinliklərini aradan qaldırmaq əsas məqsədlərindən biridir.
Zəlzələ dövründə azərbaycanlı dostları ilə birgə Türkiyədə zərərçəkənlərə göstərdiyi operativ yardım isə onun fəaliyyətində xüsusi yer tutur. O, universitetdə oxuyan soydaşlarına hər cür köməkliyi göstərir, üzləşdikləri problemləri aradan qaldırmağa çalışır: “Tələbələrin Azərbaycan dilini yaxşı başa düşməsinə, sənədləşməni düzgün aparmasına və universitet qaydalarını bilməsinə yardım etmişik. Son 4 ildə 300-dən çox tələbənin təhsil almasına dostlarımla birgə vasitəçi olmuşuq”.
Arslantürk ailə ənənələrinin onun həyat yoluna ciddi təsir etdiyini də vurğulayır. Babası Hacı Zəkəriyyə Arslantürkün 1990-93-cü illərdə İğdır üzrə Naxçıvana Yardım Komitəsinin sədri kimi fəaliyyəti, Azərbaycanla olan ictimai və humanitar əlaqələri onun üçün örnək olub: “Babam ticarətlə məşğul idi. Azərbaycana olan hədsiz sevgisi, blokada şəraitində olan Naxçıvana göstərdiyi dəstəyi naxçıvanlılar hələ də xatırlayırlar. O zaman Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri idi, babamın fəaliyyətindən də xəbərdar idi. Buna görə babamın xətrini çox istəyirdi. Babam ailəmizə, o cümlədən mənə həm milli kökümüzə bağlılıq, həm də xalqa xidmət düşüncəsi aşılayıb”.
Pediatr olmaq arzusunda olan tələbə Azərbaycan mətbəxinə, xüsusən dovğa, piti və bozbaş kimi yeməklərə sevgisini də bölüşür. Müxtəlif rayonları gəzsə də, hələ Qarabağı ziyarət etməyib. Cıdır düzünə çıxmağı, orada Türkiyə və Azərbaycan bayraqları ilə şəkil çəkdirməyi arzulayır.
II Müalicə-profilaktika fakültəsinin 4-cü



kurs tələbəsi **Zeynəb Ünər** təhsilini Azərbaycanda davam etdirmək qərarını belə əsaslandırır: “Türkiyədə oxuyurdum, amma istəyirdim ki, xaricdə təhsil alım. Bir neçə universitet, o cümlədən Azərbaycan Tibb Universiteti ilə bağlı araşdırmalara başladım. Azərbaycan bizə daha yaxın, qardaş ölkə olduğu üçün buranı seçdim”.
O, dərslərin keyfiyyətindən razı olduğunu, əlavə ədəbiyyatlar vasitəsilə təhsilini daha da gücləndirdiyini, həmçinin azərbaycanlı və türkiyəli tələbələrlə yaxşı dostluq münasibətləri qurduğunu vurğulayır.
Bakı ilə bağlı təəssüratları isə xüsusilə müsbətdir: “Şəhər çox təhlükəsizdir. Dağüstü Parkda, mərkəzi küçələrdə gəzməyi və regionlara səfərlərimizi çox sevirəm. Şəki və Qəbələ gözəl, mənzərələrla dolu bir məkandır. Kəlbəcərə səfər etmək istəyirəm. Bu regionun mineral sularla zəngin olduğunu deyirlər”.
Azərbaycan mətbəxindən ən çox yarpaq xəngəlini sevdiyini deyən Zeynəb, boş vaxtlarında musiqi və idmanla da məşğul olur.
Stomatologiya fakültəsinin 3-cü kurs tələ-



bəsi **Şayan Haşempour** isə Azərbaycanı seçməyinin əsas səbəbi kimi dil yaxınlığı və ortaq mədəniyyəti göstərir: “Öz ana dilimdə təhsil almaq istəyirdim. Azərbaycanı seçməyimin səbəbi adət-ənənələrin eyni olması və insanların istiqanlılığıdır”.
O, Bakıda özünü yad hiss etmədiyini, universitetdəki akademik mühitin isə yüksək olduğunu vurğulayır: “Müəllimlərimiz bizə xüsusi diqqətlə yanaşır. Pasiyentlər üzərində praktik dərslər keçirlər və ən müasir bilgiləri çatdırmağa çalışırlar. Yataqxanada qalırıq, şərait normaldır”.
İran vətəndaşı Şayanın da Bakı barədə təəssüratları olduqca zəngindir: “Gecə vaxtı belə rahatlıqla gəzmək olur. Şəhərin həm qədim, həm də müasir üslubda olması diqqətimi cəlb edir”. O, gələcəkdə rezidentura təhsilini də Azərbaycanda davam etdirmək niyyətindədir.

# Serebral iflicin müalicəsi üçün 34 mindən çox tibbi xidmət göstərilib

**Serebral iflic (uşaq serebral iflici) döldə və ya yenidoğulmuşda beynin inkişaf anomaliyaları və ya proqressivləşməyən zədələnməsi nəticəsində yaranan, hərəkət və duruş problemlərinin inkişafına səbəb olan nevroloji xəstəlikdir. Adətən uşaqlıq dövründə aşkarlanır və bəzən digər problemlərlə – intellekt, nitq, eşitmə və görmə qabiliyyətinin pozulması ilə müşayiət olunur.**
Serebral iflicin diaqnozu əsasən klinik əlamətlər və nevroloji müayinə əsasında qoyulur. Məsələn, nevroloji müayinə zamanı hərəkət və koordinasiya çətinlikləri, reflekslər və əzələ tonusu (əzələ gərginliyi) qiymətləndirilir, eşitmə və görmə qabiliyyətini ölçmək üçün bəzi müayinələr, laborator analizlər, elektroensefaloqrafiya (EEQ) müayinələri edilir. Beynin strukturunda anomaliyaları aşkarlamaq üçün isə ən effektiv üsul olaraq MRT-dən istifadə olunur. Həkim göstərişi ilə alternativ üsul kimi KT müayinəsi də seçilə bilər.
Serebral iflic tam müalicə edilə bilməsə də, simptomları idarə etmək mümkündür. Müalicənin əsas məqsədi əzələ gərginliyini aradan qaldırmaq və tonusunu azaltmaq, ağırlaşmaların qarşısını almaqdır. Bu məqsədlə həm konservativ, həm də cərrahi müalicə üsullarından istifadə olunur. Konservativ müalicə üsulları kimi əsasən fizioterapiya və reabilitasiyaya üz tutulur. Bu müalicə üsulu ilə tonusu normallaşdırmaq, hərəkətlərin koordinasiyasını yaxşılaşdırmaq mümkündür.
Ağırlaşma hallarında isə stasionar terapevtik müalicəyə üz tutulur.
Cərrahi müalicəyə neyrotomiya (sinirlərin kəsilməsi), tenotomiya (vətərlərin kəsilməsi), əzələ və vətərlərin uzadılması, köçürülmə və transplantasiyası, artrodez və osteotomiyaları misal göstərmək olar.
Serebral iflicli pasiyentlərin müalicəsi nevroloq, fizioterapevt, reabilitoloq, LOR, oftalmoloq, neyrocərrah, ortoped-travmatoloq və digər ixtisaslı həkimlərin birgə işi nəticəsində aparılır. Erkən diaqnoz və reabilitasiya çox vacibdir. Həyat keyfiyyətini artırmaq üçün müalicə uzunmüddətli və sistematik şəkildə aparılmalıdır.
Sadalanan müayinə və müalicə üsulları icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində qarşılanır. Ötən il ərzində serebral iflicin stasionar müalicəsi üçün 34 mindən çox tibbi xidmət göstərilib.



Qeyd edək ki, uşaqda 3-4 aylığında başını düz tuta bilməmək, 6-7 aylığında oturmamaq, əllərini və ayaqlarını qeyri-bərabər hərəkət etdirmək, sıx-sıx qıcolmalar (epileptik tutmalar) keçirmək, nitqdə gecikmənin olması kimi əlamətlər olduğu təqdirdə, erkən diaqnoz və müdaxilə üçün həkimə müraciət edilməlidir.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 2 yer
- Dermatovenerologiya kafedrası - 1 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Radiologiya kafedrası - 2 yer
- Patologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Ortodontiya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,75 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 2 yer
- Nevrologiya kafedrası - 2 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,75 vahid)

**Kafedraların müəllimləri:**
- Xarici dillər kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)
- **Bioloji kimya kafedrası üzrə elmi tədqiqat laboratoriyası** (laboratoriya müdiri) **- 1 yer**
- **Bioloji kimya kafedrası üzrə elmi tədqiqat laboratoriyası** (böyük elmi işçi) **- 1 yer**

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**
1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Ədalət Rüstəmə anası **Tovuz xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Gülqız xanıma anası **Gülmayə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları kafedranın professoru Nadir Hüseynova qardaşı **Nurəddin Hüseynovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi kafedranın assistenti **Samir Müslümzadənin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın dosenti Aydın Əliyevə əzizi **Vahid Ağayevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0001
Sayı 800